# Sehrli nağılların sosial harmoniya modelində islami ədalət ideyası

**Qalib Sayılov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA-nın Folklor İnstitutu*
**E-mail:** qalibsayilov@mail.ru

**Rəyçilər:** filol.ü.e.d. R. Qafarov,
filol.ü.f.d. Ə. Ələkbərli

**Açar sözlər:** İslam, nağıl, sehrli nağıl, haqq, ədalət, islami ideya
**Ключевые слова:** Ислам, сказка, волшебная сказка, правда, справедливость, Исламская идея
**Key words:** Islam, tale, magic tale, truth, justice, Islamic idea

Nağıllar kütləvi-ictimai folklor örnəyi kimi Azərbaycan ağız ədəbiyyatının ən yayğın və ən qədim janrlarından biridir. Onun qədimliyi bu janrın xalq düşüncəsinin epoxal inkişaf tarixini özündə əks etdirdiyini göstərir. Bu cəhətdən nağıllar İslam epoxası dövründə ciddi dəyişikliklərə məruz qalmış, nağılların funksional mahiyyətinin başlıca göstəricisi olan sosial ədalət ideyası islami ədalət ideyasına transformasiya olunmuşdur.

Biz nağılların qruplaşdırılması altında məhz nağıllarda islami inancları araşdırmağa çalışmağımız gərəyindən bu kimi anlayışların bir daha dəqiqləşməsinə ona görə diqqət çəkirik ki, inanc qavramının sistemli səviyyələrini elmi auditoriyaya yeni bir istiqamətdə təqdim edə bilək.

A.Nəbiyev göstərir ki, bu nağıllar sehrli süjetlər üzərində qurulur, onlarda sehrli obrazlar əsas rol oynayır (6, 318). O.Əliyev bu nağıllarda hadisələrin, obrazların və köməkçi vasitələr olaraq müəyyən əşyaların möcüzəvi elementlərlə zənginliyi baxımından təsvirini sehrli nağılların inikası olaraq izah edir (4, 12).

Azərbaycan folklorunda geniş yayılmış sehrli nağıllardan "Hatəmin nağılı", "Ax-vax", "Sehirli üzük", "Məlik Məhəmməd", "Məlik Məhəmməd və Məlik Əhməd", "Oxqay", "Şəms-Qəmər", "Ovçu Pirim", "Göyçək Fatma", "Oxxayla Əhməd", "İsgəndər Zülqərneyn", "Daş üzük", "Tapdıq", "Qırx Qönçə xanım", "Beçə Dərvişin nağılı", "İbrahim", "Keçəl Məhəmməd", "Qaraqaşın nağılı", "Gül Sənavərə neylədi, Sənavər gülə neylədi?", "Üç şahzadə", "Ağ quş", "Cəlayi-vətən", "Qızıl qoç", "Məlik Cümşüd", "Şahzadə Mütəllib", "Sehirli tütək", "Xallı balıq və Şah oğlu", "Sehirli at" və s. nağılları misal göstərmək olar. Əlbəttə biz sehrli nağıllara aid olan nağılların yalnız Azərbaycanda deyil, ümumtürk, ümumşərq məkanında, daha dəqiqi dünya miqyasında müxtəlif motivlərlə daha geniş yayılmış örnəklərindən bir qismini bu sehrli nağıllar haqqında müəyyən təəssürat yaratmaq üçün burada qeyd edirik. Əks təqdirdə sehrli nağılların kataloqu həcminə görə geniş yer tutmaqla mövzudan yayınmağa səbəb ola bilər.

Sehrli nağıllarda qeyri-adi obrazların, möcüzəvi əşyaların və müxtəlif əsrarəngiz məkanların iştirakı bizi ilkin olaraq sehrli nağıllarda mifoloji sistemin mövcudluğunun araşdırılmasına cəlb edir. Öncə onu qeyd edək ki, sehrli nağıllarda miflərin daşınması müəyyən tədqiqatçılar tərəfindən də diqqətə alınmışdır (3, 33). Hələ nağıllarımızın toplanılması, tədqiqi və nəşri işində əvəzolunmaz zəhməti olan böyük folklorşünas

H.Zeynalllı yazırdı ki, nağıllara diqqət etdikdə bir sıra mifoloji (əsatiri) süjetlərə təsadüf ediləcəyi bəllidir (1, 7). Aydındır ki, H.Zeynallı bu fikri irəli sürərkən əsasən sehrli nağıl süjetlərini nəzərdə tutur.

Ümumiyyətlə sehrli nağılların miflərlə əlaqəsinin araşdırılması bu məzmunlu nağıllarda daşınan mifoloji bilgilərin zənginliyindən irəli gəlmişdir. V.Y.Prop yazır: "Bu yunan materialları çox maraqlıdır. Onlar sonrakı mərhələni göstərir. Su ilanının xtonikə və xeyirxaha çevrilməsini göstərir... Herakl ona qalib gəlir və sağ saxlamır. Kerber bütün xtonik cəhətləriylə birgə insanlara gərək olan varlıq kimi xilaskar funksiyada görünür" (7, 228).

Göründüyü kimi mif məzmunundan asılı olaraq sakral və qeyri sakral əhatədə yerləşən obrazlar yer dəyişdirə bilir ki, bu da invariant strukturdan qopan müxtəlif paradiqmalar kimi görünüb struktur və antistruktur səviyyələrdə iştirak edir. Ancaq yenə də qalib olan sakral əhatə olur. Əlbəttə, bu mətnlərdə təsadüfi olaraq yer almır. *Sakral sfera ona görə qalibdir ki, Vahid Allah, Vahid Tanrı, Yaradıcı varlıq və s. qavramlarla invariant strukturun yaranma səbəbi kimi Vahid Allah inancı özünü göstərir.* Biz demək olar ki, mif mətnlərinin başlanğıcını özündə göstərən bütün xalqların törəyiş mif və dastanlarında, eləcə də nağıllara transformasiya olunan miflərdə bunu görə bilirik. Əlbəttə, biz iddia etmirik ki, bu mətnlərdə başqa mövzular və yaxud başqa şəkildə inamlar özünü göstərmir. Lakin bu qeyd etdiyimiz dünyagörüşü forması ilə heç bir ziddiyyət təşkil etmir. Çünki yuxarıda da izah etdiyimiz kimi mifoloji strukturun əsasını məhz vahid inanc qaynağı təşkil edir. Bu nağıllarda da belədir. R.Əliyev haqlı olaraq göstərir ki, nağıl strukturunun əsasını mifoloji mətnlər daşıyır (5, 107).

Biz yuxarıda qeyd etmişik ki, xaotik obrazlar da mətnlərdə ikili funksiyada-xtonik və xeyirxah funksiyalarda çıxış edə bilir ki, bu da vahid sistemin kosmos-xaos nizamının göstəricisi olaraq mətnlərdə semantik laylar təşkil edir. "Ovçu Pirim" nağılında bu mülahizənin doğruluğu aydın şəkildə öz təsdiqini tapır. Nağılda Ovçu Pirimin qara ilana atdığı oxun ağ ilana dəyib onu yaralaması, ağ ilanın ilanlar padşahının qızı olduğu üçün təhlükəyə düşməsi, lakin gerçək məlum olduqdan sonra ilanlar padşahının onu mükafatlandırması, xüsusilə də bu ilanın tüpürcəyinin quşların, heyvanların və otların dilini bilmək üçün səbəbkar funksiyada iştirak etməsi, yaşıl qaşlı üzüyünün isə diləkləri gerçəkləşdirmək üçün vasitə olması, ilanların çətin situasiyalarda Ovçu Pirimə köməyə gəlməsi və s. xtonik keyfiyyətli ilanların xilaskar funksiyada işarələnməsini müxtəlif səviyyələrdə əks etdirir (2, 6-9).

Onu da qeyd edək ki, izlədiyimiz bu kimi süjet və motivləri biz bir çox nağıllarda görürük. Ancaq məqsədimiz nağıl statistikası çıxartmaq deyil, örnək verdiyimiz nağılların səciyyələnməsində nağıllardakı inancların vahid sistemə malik olmasını və bu sistemin tarixən islami əxlaq modelinə transformasiya olunduğunu diqqətə çatdırmaqdır. Bu cəhətdən sehrli nağıllarla bağlı apardığımız tədqiqat bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir:

~ Nağılların sosial harmoniya modelində islami ədalət ideyası hər bir nağıl qrupunda öz təzahür səviyyələrinə malikdir. Bu cəhətdən sehrli nağıllar da özünəməxsus poetik cəhətlərə malikdir.

~ Sehrli nağıllarda islami görüşlər daha çox sosial ədalət ideyasında təzahür edir. Belə ki, sehrli nağılların obrazlar sisteminin mifik görüşlərlə bağlılığı islami görüşlərin bu nağıllara personajlar səviyyəsində nüfuz etməsinə imkan verməmişdir.

~ Sehrli nağıllar sabit süjet strukturuna və bu strukturu təşkil edən obrazlar sismeniə malikdir. Süjet bu obrazların funksional sxem üzrə düzümündən yaranır. Bu düzümdə hər hansı dəyişikliyin baş verməsi nağılı "sehrli nağıl" olmaqdan çıxarır. Bu cəhətdən mifimk dünyagörüşü ilə bağlı obrazlara malik sehrli nağıllarda islami görüşlərlə bağlı personajlara,

demək olar ki, rast gəlinmir.

~ İslami görüşlər sehrli nağılların sosial harmoniya modelində təzahür edir. Qəhrəmabnın uğrunda mübarizə apardığı “haqq”, “ədalət” kimi mənəvi konseptlərin leksik baxımdan ərəb mənşəli olması da sehrli nağılların mənəvi sisteminin artıq islami əxlaq enerjisi qidalandığını göstərir.

~ “Ovçu Pirim” nağılında Ovçu Pirimin ağ ilana təcavüz edən qara ilana ox ataraq onu cəzalandırmaq istəməsi etnik və islami olmaqla iki məna səviyyəsinə malikdir:

*1. Etnik məna səviyyyəsi:*

Ovçu Pirimin ağ ilanı müdafiə etmək istəməsi bir psixoloji davranış kompleksi kimi, ilk növbədə etnik-mental əxlaq modelinə əsaslanır. Azərbaycan mentalitetində zəifə, təcavüzə məruz qalana kömək etmək milli əxlaqın tarixin dərinlikıərindən gələn humanist keyfiyyətidir;

*2. İslami məna səviyyəsi:*

Ovçu Pirim orta əsrlər Azərbaycan insanının əxlaqi davranışlarını daşıyan obraz kimi, bu namussuzluq səhnəsinə biganə qala bilmir. Onun ovçuluğu ibtidai peşə olsa da, ov əxlaqı həm də islami haqq-nahaqq davranış modeli ilə idarə olunur. O, əsil islam əxlaqının daşıyıcısı kimi bu səhnəyə dözə bilmir və qara ilanı cəzalandırmaq istəyir.

~ Ovçi Pirinmin qara ilanı vurmaq istərkən təsadüfən ağ ilanı yaralaması, buna görə öz həyatına təhlükə yaranması, lakin həqiqətin üzə çıxması ilə onun ilanlar padşahı tərəfindən mükafatlandırması da etnik-mədəni və islami olmaqla iki məna səviyyəsinə malikdir:

*1. Etnik-mədəni məna səviyyəsi:*

Ovçu Pirim obrazı öz mənşəyi etibarilə mifik ovçuluq hamisinə bağlanır. Nağılda eyni zamanda ilan kultunu aşıq-aşkar müşahidə edirik. İlanların padşahının Ovçu Pirimi mükafatlandıraraq ona magik qabiliyyətini (heyvanların. Quşların dilini bilmək vergisini) verməsi birbaşa ilan kultunu ortaya qoyur. Bu, əski ritual-mifoloji sxemdir və həmin sxem etnik məna səviyyəsinin əsasında durur.

*2. İslami məna səviyyəsi:*

Ovçu Pirimin həyatının təhlükəyə düşməsi və sonradan həqiqətin üzə çıxması ilə mükafatlandırılması həm də “Haqq nazilər – üzülməz” ideyasını gerçələşdirir. Bu ideya birbaşa İslam yüklüdür. Belə ki, Azərbaycan etnopsixologiyasında Haqq dedikdə Allah nəzərdə tutulur. Bu cəhətdən “haqq nazilsə də, üzülməməsi” birbaşa islami ədalət ideyasını təcəssüm etdirir. Yəni Haqq yolunu tutub gedən insan nə qədər çətin vəziyyətə düşsə də, Allah onu darda qoymaz.

**Məqalənin aktuallığı**. Tədqiqatın aparılmasında başlıca məqsəd sehrli nağılların sosial harmoniya modelində islami ədalət ideyasının təzahür xüsusiyyətlərini araşdırmaqdır.

**Məqalənin elmi yeniliyi.** Beləliklə, sehrli nağıllarda islami ideyanın teoloji-ontoloji mahiyyətdə çıxış etməsi sistemli səviyyədə bizim tərəfimizdən elmi auditoriyaya təqdim olunur ki, bu istiqamətdə sehrli nağıllara yanaşmağa çox böyük ehtiyac hiss olunmaqdadır.

**Məqalənin nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatın nəzəri əhəmiyyəti ondan folklorşünaslıq, din tarixi, mifologiya, ibtidai fəlsəfə ilə bağlı digər tədqiqatlarda nəzəri qaynaq kimi istifadə imkanları, praktiki əhəmiyyəti isə işdən ali məktəblərdə folklor, din və mifologiyanın tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

## Ədəbiyyat

1. Azərbaycan nağılları. V cilddə, I cild / Toplayıb tərtib edən Zeynallı H. Bakı: Şərq-Qərb, 2005.

2. Azərbaycan nağılları. V cilddə, V cild / Tərtib edən Seyidov N. Bakı, Şərq-Qərb, 2005.
3. Coşğun J. Türk və slavyan sehrli nağıllarında mifopoetik formullar // Dədə Qorqud, 2012, № 4.
4. Əliyev O. Azərbaycan nağıllarının poetikası. Bakı: Səda, 2001.
5. Əliyev R. Mif və folklor: genezisi və poetikası. Bakı: Elm, 2005.
6. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə: Ali məktəblər üçün dərslik. Bakı: Elm, 2006.
7. Пропп В.Я. Исторические корни волшебной сказки. М.: Лабиринт, 2000.

**Г. Саилов**

## Идея исламской справедливости в модели социальной гармонии волшебных сказок

### Резюме

Сказки, как образец массово-общественный образец является самым широко распространенным и древним жанров Азербайджанской устной литературы. Древность этого жанра показывает то, что в нем отражена история эпохального развития народного мышления. С этой точки зрения, сказки в Исламскую эпоху были подвержены серьезным изменениям, идея социальной справедливости, которая является основным показателем функциональной сущности сказок, была трансформирована в идею исламской справедливости.

**G. Sayilov**

## The idea of Islamic justice in the model of social harmony of magic tales

### Summary

The tales as a model of a mass-public sample is the most widespread and ancient genre of the Azerbaijan oral literature. The antiquity of this genre shows that it reflects the history of the epochal development of folk thought. From this point of view, the fairy tales in the Islamic era were subject to the serious changes, the idea of social justice, which is the main indicator of the functional essence of fairy tales, was transformed into the idea of Islamic justice.

**Redaksiyaya daxil olub:** 05.07.2018